# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 32** **Bakı şəhəri, 19 yanvar 2024-cü il**

***“Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 57 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərinin mükafatlandırılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 57 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 245 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adı və 1-ci hissə üzrə:

1.1. “Olimpiya” sözündən sonra “, Paralimpiya və qeyri-olimpiya” sözləri əlavə edilsin;

1.2. birinci halda “və” sözü vergül işarəsi ilə və “Kubok yarışlarında” sözləri “birinciliklərində” sözü ilə əvəz edilsin.

**2.** 2-ci hissə ləğv edilsin.

**3.** Həmin Qərarla təsdiq edilmiş “Olimpiya Proqramına daxil olan idman növləri üzrə Dünya və Avropa çempionatları və Kubok yarışlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatlar” yeni redaksiyada verilsin (əlavə olunur).

**4.** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 23 yanvar, № 13.- S.10.